

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 203 (23.365)

29 oktyabr 2019-cu il, çərşənbə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Qəbələ rayonuna səfərə gəlib.

* * *

Dövlətimizin başçısı həmin gün Qəbələ rayonunun Vəndam qəsəbəsində dekorativ gülçülük istixanası ilə tanış olub.

* * *

Oktyabrın 28-də Qəbələ rayonunda 110/35/10 kilovoltluq “Qəbələ” elektrik yarımstansiyası yenidənqurmadan sonra istismara verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yarımstansiyada yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.

* * *

Həmin gün Qəbələ şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

Oktyabrın 28-də “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Qəbələ filialının açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.



# Müasir Azərbaycan kəndi – Gülşənabad

## *Kompleks quruculuq işləri kəndin yeni inkişaf tarixinin əsasını qoyub*

Ümummilli liderimiz Heydər Əliyev “Yeni 2001-ci il, Yeni Əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti”ndə deyirdi: ***“Bəşəriyyətin qədəm qoyduğu müasir inkişaf mərhələsində öz layiqli yerimizi tapmaq üçün gərək biz zamanın tələbləri ilə uyğunlaşa bilək”.***

Ulu öndərimizin ideyalarının reallaşması müstəqil Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının müasir inkişaf modelini yaradıb. Güclü iqtisadiyyata və sosial rifaha hesablanmış islahatlar quruculuq işlərinin miqyasını xeyli genişləndirib. Bunun ən bariz nümunəsi isə hər il abadlaşan, bütün sahələrdə rahat infrastruktur təminatı yaradılan kəndlərin sayının artmasıdır. Babək rayonunun Gülşənabad kəndində məktəb binasının, kənd və xidmət mərkəzlərinin, yolun istifadəyə verilməsi də bir kəndin timsalında ölkəmizin iqtisadi qüdrətinin göstəricisidir.

# Gülşənabadda yeni məktəb binası istifadəyə verilmişdir





Oktyabrın 28-də Gülşənabad kənd ümumi orta məktəbin yeni binasının açılışı olmuşdur.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 144 şagird yerlik üçmərtəbəli məktəbdə 3-ü elektron lövhəli olmaqla, 15 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, şahmat sinfi, kompüter və müəllimlər otaqları, kitabxana və idman zalı vardır. Kompüter otağında internetə çıxışı olan 13 kompüter quraşdırılıb. Kitabxanada 667-si dərslik və 1168-i bədii ədəbiyyat olmaqla, 1835 kitab, eləcə də “Oxunması zəruri olan kitablar”dan ibarət guşə vardır. İdman zalında şagirdlərin fiziki hazırlığı üçün lazımi şərait yaradılıb.



Bildirilmişdir ki, bu tədris ilində məktəbin birinci sinfinə 11 şagird qəbul olmuşdur.

Məktəbdə yeni işlə təmin olunan gənc müəllimlərdən Vəfa Sadiqova, Lalə Zeynalova və Tərlanbəyim Məmmədova yaradılan şəraitə görə minnətdarlıq etmişlər.

Məktəb muxtar respublikanın muzey

*Ardı 2-ci səhifədə*



şəbəkəsinə qoşulmuş və Cəlil Məmmədquluzadənin ev-muzeyi ilə ümumtəhsil məktəbləri arasında keçilən interaktiv dərs izlənilmişdir.

Ali Məclisin Sədri məktəbin müəllimləri ilə görüşmüşdür.

Məktəbin direktoru Vüsal Tağıyev çıxış edərək demişdir ki, muxtar respublikanın bütün şəhər, qəsəbə və kəndlərində genişmiqyaslı quruculuq işləri aparılır. Bu işlərin davamı kimi Gülşənabad kəndində yeni məktəb binası tikilmişdir. Cari tədris ilinə qədər ibtidai məktəb kimi fəaliyyət göstərən təhsil ocağı Ali Məclis Sədrinin tapşırığı ilə ümumi orta məktəbə çevrilmişdir. Bu isə məktəbimizin həm müəllim, həm də şagird sayının artmasına səbəb olmuşdur. Məktəbin müasir maddi-texniki bazaya malik olduğunu bildirən Vüsal Tağıyev kollektiv adından minnətdarlıq etmişdir.

Müəllim Fatma Kərimova demişdir: "Bu gün ucqar dağ kəndlərinin infrastruktur təminatı baxımından şəhər və rayon mərkəzlərindən geridə qalmaması hər bir yaşayış məntəqəsinin inkişafına və insan amilinə verilən dəyərin ifadəsidir. Gülşənabad məktəbində yaradılan şərait şagirdlərin daha yaxşı təhsil almalarına geniş imkan açmaqla yanaşı, müəllimləri də daha yaxşı işləməyə ruhlandırır. Muxtar respublikada müəllim əməyinə yüksək qiymət verilir. Müəllimlərin işə qəbulu üzrə keçirilən sonuncu müsabiqədə yüksək nəticə göstərənlərdən 9-u bu məktəbə təyinat almışdır. Yaradılan şəraitə görə məktəbin kollektivi adından minnətdarlığımızı bildirir və əmin edirik ki, bundan sonra da bilikli və vətənpərvər gənclərin yetişdirilməsində səylərimizi əsirgəməyəcəyik".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Bu gün Gülşənabad kəndinin həyatında əlamətdar gündür. Aparılan geniş quruculuq işlərindən sonra Gülşənabad müasir yaşayış məntəqəsinə çevrilib. Görülən işlər içərisində ən vacibi Gülşənabad kənd ümumi orta məktəbinin istifadəyə verilməsidir. Bu günədək kənddə ibtidai məktəb fəaliyyət göstərirdi və lazımi tədris şəraiti olmayan binada yerləşirdi. İbtidai məktəbi bitirən şagirdlər qonşu kənddəki məktəbdə təhsillərini davam etdirirdilər. Bütün bunlar isə tədrisin keyfiyyətinə öz təsirini göstərir, müəyyən çətinliklər yaradırdı. Lakin bu gün ən müasir tədris avadanlıqları ilə təmin olunmuş məktəb istifadəyə verilir. Bu da şagirdlərin rahat və hərtərəfli təhsil almasına imkan verəcəkdir.

Ali Məclisin Sədri demişdir: Bu gün ölkəmizdə təhsil sahəsində həyata keçirilən tədbirlərin nəticəsidir ki, ən ucqar kəndlərdə də müasir məktəblər istifadəyə verilir, gənclərin təhsili üçün hərtərəfli şərait yaradılır. Eyni zamanda kəndlərimiz abadlaşır, insanların rahat yaşayışı təmin edilir. Bütün bunlar isə ümummilli liderimiz Heydər Əliyevin yolunun uğurla davam etdirilməsi və dahi şəxsiyyətin ideyalarına sədaqətin nəticəsidir. Təhsilin inkişafı üçün həyata keçirilən tədbirlər, məktəblərin istifadəyə verilməsi ölkəmizin gələcəyinə xidmət edir. Bu gələcəyi təmin etmək üçünsə, yalnız şəhər məktəblərində deyil, ümumilikdə, ölkənin bütün məktəblərində eyni tədris şəraiti yaradılmalıdır. Bu gün Gülşənabad kənd məktəbi də müasir tədrisin tələbləri səviyyəsindədir. 144 yerlik məktəbdə internetə qoşulmuş kompüter sinfi, elektron lövhələr, laboratoriyalar, kitabxana, idman zalı və digər tədris avadanlıqları müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Eyni zamanda məktəbdə bütün fənlər üzrə müəllimlərin olması şagirdlərin hərtərəfli hazırlanmasına imkan verəcəkdir.



Gülşənabad kənd ümumi orta məktəbinin gələcəkdə tam orta məktəbə çevrilməsi də kollektivin fəaliyyətindən asılıdır.

Ali Məclisin Sədri məktəbin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş və əminliyini bildirmişdir ki, Gülşənabad kənd ümumi orta məktəbi muxtar respublikanın qabaqcıl məktəbləri sırasında öz yerini tutacaqdır.

## Kənd mərkəzi fəaliyyətə başlamışdır







Oktyabrın 28-də Gülşənabad Kənd Mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, binada yerləşən təşkilatların fəaliyyəti və yaradılan şəraitlə maraqlanmışdır.

2 mərtəbəli binada rabitə evi, polis sahə və baytarlıq məntəqələri, 4174 ədəbiyyat fonduna malik olan kitabxana, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, feldşer-mama məntəqəsi, klub, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı və zal yerləşir. Bildirilmişdir ki, ərazi ilk təşkilatının 147 üzvü vardır ki, onların da 45-i gənc, 60-ı isə qadındır.

Kitabxanaçı Sevinc Məmmədova kitabxananın əvvəllər lazımi şəraiti olmayan binada yerləşdiyini diqqətə çatdırmış, yeni kitabxanada oxuculara hərtərəfli xidmət göstərəcəklərini bildirmişdir.

Kənddə baytarlıq xidmətinin təşkilinə xüsusi diqqət yetirilir, mütəmadi olaraq baytarlıq müşahidələri və tədbirləri aparılır. Rabitə evində poçt bölməsi yaradılmış, göstərilən xidmətlərin səviyyəsi yüksəldilmişdir. Burada yeni nəsil texnologiyalara əsaslanan 192 nömrə tutumlu ATS quraşdırılmış, sürətli internetə çıxış imkanı yaradılmışdır.



Feldşer-mama məntəqəsi 3 otaqdan ibarətdir. Məntəqədə tibbi xidmətin təşkili, eləcə də ginekoloji müayinələrin aparılması üçün şərait yaradılmış, təcili yardım və peyvənd çantaları, qlükometr, soyuducu və digər tibbi ləvazimatlar qoyulmuşdur.

Ali Məclis Sədrinə minnətdarlıq edən məntəqə müdiri Abuzər Hüseynov və mama Aysel Seyidova tibbi xidmətin təşkili üçün yaradılan şəraitin daha səmərəli fəaliyyət göstərməyə imkan verəcəyini bildirmişlər.

Ali Məclisin Sədri əhalinin sağlamlığına diqqətin artırılması ilə bağlı tapşırıqlar vermişdir.

*Ardı 3-cü səhifədə*

## Gülşənabad kənd avtomobil yolu yenidən qurulmuşdur





Kəndlərin inkişafının əsas cəhətlərindən biri də müasir yol infrastrukturudur. Hər il muxtar respublikanın kəndlərində digər sosial obyektlərlə yanaşı, rahat və abad yollar da istifadəyə verilir.

Oktyabrın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gülşənabad kənd avtomobil yolunun açılışını etmişdir.

Bildirilmişdir ki, 2,8 kilometrlik kənd yoluna asfalt örtük salınmış, 1 kilometrə yaxın yolda təmir işləri aparılmışdır. Yolun tikintisi zamanı 980 metr beton su kanalı çəkilmiş, körpü əsaslı təmir edilmiş, 65 su keçidi qoyulmuş, 1 kilometr məsafədə sahilbərkitmə işləri aparılmışdır.

## Xidmət mərkəzinin açılışı olmuşdur








Həmin gün Gülşənabadda xidmət mərkəzi də fəaliyyətə başlamışdır.

Açılışı bildirən lent kəsildikdən sonra məlumat verilmişdir ki, 4 nəfərin işlə təmin olunduğu xidmət mərkəzində bərbərxana, gözəllik salonu, ət satışı yeri, ərzaq malları mağazası və anbar fəaliyyət göstərir. Mərkəzdə ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların satışına üstünlük verilir.

Sonra kənd sakinləri ilə görüş olmuşdur.

Ali Məclisin Sədri Gülşənabad kəndində aparılan quruculuq işləri və kəndin muxtar respublikanın abad yaşayış məntəqələri sırasına qoşulması münasibətilə sakinləri təbrik edərək demişdir: Gülşənabad kəndinin tarixində heç vaxt bugünkü qədər abadlıq-quruculuq işləri aparılmamışdır. Kənddə əhalinin rahatlığına xidmət edəcək bütün tədbirlər görülmüş, məktəb, kənd və xidmət mərkəzləri tikilmiş, yol yenidən qurulmuş, qaz, elektrik və rabitə sistemləri yenilənmişdir. Artıq kənddəki dövlət qurumları müasir binalarda sakinlərə xidmət göstərəcəklər.

Ali Məclisin Sədri demişdir: Ölkəmizdə Heydər Əliyev siyasi xəttinin davam etdirilməsi hər bir yaşayış məntəqəsinin inkişafına və əhalinin rahat yaşayışına səbəb olmuşdur. Ötən əsrin 70-ci illərində ümummilli liderimiz ölkəmizdə yeni inkişaf strategiyasının əsasını qoymuş, inkişaf səviyyəsinə görə keçmiş Sovetlər Birliyində axırıncı yerlərdə olan Azərbaycan qısa müddətdə ittifaqın qabaqcıl respublikaları sırasına yüksəlmişdir. Həmin dövrdə qazanılan uğurlar olmasaydı, Azərbaycanın müstəqillik illərində inkişafı da mümkün olmayacaqdı. Bu gün də Azərbaycanın inkişafı, mövcud sabitlik və yüksək rifah ulu öndər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir. Gülşənabadda görülən işlər də insanların rahatlığı və kəndin gələcək inkişafı üçündür. Kənddə məskunlaşma və əhalinin sayı artır, təsərrüfatlar genişlənir. Sakinlər də qurulanları qorumalı, yaradılan şəraitdən səmərəli istifadə olunmalı, kənd daha da böyüməli, inkişaf etməlidir.

Sakin Məmməd Məmmədov kənd əhalisi adından minnətdarlıq edərək demişdir: "Göstərilən böyük diqqət və qayğı sayəsində Gülşənabad kəndinin siması tamamilə dəyişilib. Kənddə geniş tikinti-quruculuq işləri aparılıb, məktəb, kənd və xidmət mərkəzi tikilib. Bundan əlavə, yollarımız yenidən qurulub, asfalt salınıb, elektrik, qaz, rabitə, su sistemi tamamilə yenilənib. Bir sözlə, kənd yeni inkişaf tarixini yaşayır. Yenilik, müasirlik rahat yaşayışımız üçündür. Yaradılanları qorumaq, onlardan səmərəli istifadə edərək ölkəmizin inkişafına töhfə vermək qarşımızda duran əsas vəzifədir".

* * *

Gülşənabad kəndində quruculuq işləri ilə yanaşı, rabitə, elektrik, qaz və su sistemləri də yenilənmişdir. Belə ki, kənddə 2004 metr fiber-optik və 3 kilometr rabitə, 8 kilometrə yaxın elektrik xətti çəkilmiş, 3426 metr qaz xəttində təmir-bərpa işləri aparılmışdır. Kəndə 1900 metr uzunluğunda yeni içməli su xətti də çəkilmiş, evlərin su təminatı yaxşılaşdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**





# Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı ilbəil möhkəmlənir



*Türkiyə Cümhuriyyətinin yaranmasının 96-cı ildönümü tamam olur.*

1919-cu ildən başlayaraq Mustafa Kamal Atatürkün rəhbərliyi ilə qurtuluş savaşı aparan türk ordusu ölkəni işğal etmiş düşmənə sarsıdıcı zərbə vuraraq 1922-ci ilin avqustunda böyük zəfər qazandı. Bu zəfərin qazanılmasında türk xalqı ilə yanaşı, Azərbaycan xalqı da iştirak etmiş, şəhidlər vermişdir. 1923-cü il oktyabrın 29-da isə müstəqil Türkiyə Respublikasının yaradılması bütün dünyaya bəyan edildi.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Türkiyə ilə Azərbaycanın əlaqələrinin qədim və zəngin tarixi var. Bu əlaqələr dostluq, qardaşlıq əlaqələridir. Həmin əlaqələrin mənbəyi bizim müştərək tarixi köklərimizdir, eyni kökə mənsubiyyətimiz, dilimizin, dinimizin, adət-ənənələrimizin eyni olmasıdır. Bütün bunlar əsrlər boyu bizi bərabərliyə, dostluğa, əməkdaşlığa çağırıbdır".***

Bu gün Azərbaycan-Türkiyə əməkdaşlığı ölkə Prezidentlərinin iradəsinə uyğun olaraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ölkələrimiz regionda və beynəlxalq aləmdə baş verən bütün hadisə və proseslərə münasibətdə eyni mövqedən çıxış edirlər. Qarşılıqlı səfərlər ikitərəfli əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayır, bütün sahələrdə əlaqələr uğurla inkişaf edir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və TAP kimi böyük layihələr Azərbaycan və Türkiyənin dünyada söz sahibi olmasına imkan yaradıb.

Ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə – 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu" imzalanmışdır. Bu səfərin nəticələri uğurlu olmuş, 1992-ci ilin 28 mayında Sədərək-Dilucu körpüsü istifadəyə verilmişdir.

Bu gün ölkələrimiz arasındakı əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm yeri vardır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasında iqtisadi-ticarət, təhsil, səhiyyə, turizm, mədəniyyət, ordu quruculuğu və nəqliyyat sahələrində əlaqələr uğurla inkişaf etdirilir. Hazırda Naxçıvandan İstanbul, Ankara, Bursa, Antalya, İzmir, Qars və İğdır şəhərlərinə avtobus marşrutları işləyir, İstanbul-Naxçıvan-İstanbul təyyarə reysləri həyata keçirilir. Həmçinin bu il avqustun 15-də Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa hava dəhlizi açılmışdır. Qars-Naxçıvan dəmir yolu layihəsinin reallaşdırılması, eləcə də Sədərək gömrük-keçid məntəqəsi üçün yeni kompleksin tikintisi əlaqələrimizi daha da genişləndirəcəkdir.

Naxçıvan Muxtar Respublikasında Türkiyəyə məxsus sahibkarlıq subyektləri fəaliyyət göstərir. Muxtar respublikanın ali təhsil ocaqlarında yüzlərlə Türkiyə vətəndaşı müxtəlif ixtisaslar üzrə təhsil alırlar. 2017-ci ildə Türkiyə hökumətinin qəbul etdiyi yeni tənzimləmə qərarına əsasən Naxçıvan Muxtar Respublikasındakı istehsal müəssisələrinin Türkiyəyə məhsul ixracına güzəştlərin tətbiq olunması və muxtar respublikaya sərbəst ticarət imkanı yaradılması, eləcə də bu il Naxçıvan Muxtar Respublikasının İğdır Ticarət Evinin istifadəyə verilməsi ikitərəfli münasibətlərin uğurlu nəticəsidir.

Bu gün Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında hərbi sahədəki əməkdaşlığın səviyyəsi də məmnunluq doğurur. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən bu ilin iyun ayında Naxçıvanda iki ölkənin Silahlı Qüvvələrinin "Sarsılmaz qardaşlıq – 2019" birgə döyüş atışlı taktiki təlimləri keçirilmişdir. Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimlərində iştirak etmək üçün muxtar respublikaya səfərə gəlmişdir.

Soy-kök, milli və ortaq dəyərlərə əsaslanan Azərbaycan-Türkiyə əlaqələri böyük perspektivə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri regionda əmin-amanlığın və sabitliyin qorunmasına mühüm töhfədir. Qarşılıqlı faydalı əməkdaşlıq, həyata keçirilən birgə layihələr strateji tərəfdaşlığımızı daha da möhkəmləndirir".***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Şura iclası keçirilib



*Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının geniş tərkibli növbəti şura iclası keçirilib. İclasda 2019-cu ilin doqquz ayı ərzində görülmüş işlər müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib.*

İclası giriş sözü ilə açan təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov bildirib ki, son illərdə ölkəmiz partiyanın sədri, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm uğurlara imza atıb, dövlətimizin beynəlxalq aləmdə nüfuzu daha da güclənib. Sosial-iqtisadi sahədə yeni-yeni nailiyyətlər əldə edilib. Bütün bunların sayəsində yeni iş yerləri yaradılıb, sosial qayğıya daha çox ehtiyacı olan fiziki imkanları məhdud insanların, şəhid ailələrinin qaçqın və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində kompleks addımlar atılıb, əməkhaqların, təqaüdlərin artırılması təmin edilib.

Arif Qasımov bildirib ki, Azərbaycanın bugünkü inkişafı, müasir dövlətə çevrilməsi ulu öndər Heydər Əliyev siyasətinin həyata keçirilməsinin nəticəsidir. Əldə edilən bütün uğurlar yalnız bir məqsədə – Azərbaycan vətəndaşının rifah halını daha da yaxşılaşdırmağa xidmət edir.

Vurğulanıb ki, təşkilat 2019-cu ilin ötən aylarında öz fəaliyyətini iş planına uyğun qurub. Ötən 9 ayda təşkilatın İdarə Heyətinin 9, şurasının isə 3 iclası keçirilib. Partiya sıralarına qəbulda keyfiyyət tərkibinin yaxşılaşdırılmasına, xüsusilə gənclərin Yeni Azərbaycan Partiyasına qəbul edilməsinə böyük önəm verilib. Hazırda Sədərək Rayon Təşkilatının 1571 nəfər üzvü vardır. Doqquz ay ərzində partiya sıralarına 48 nəfər üzv qəbul olunub ki, onlardan 16-sı qadın, 40-ı isə gəncdir. Sözügedən dövrdə ərazi ilk partiya təşkilatlarının fəaliyyətlərinin genişləndirilməsi təmin olunub.

Yığıncaqda təşkilatın Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Vüsalə Əliyeva, Sədərək kənd ərazi ilk partiya təşkilatının sədri Əjdər Məmmədhəsənov və Gənclər Birliyinin sədr müavini Ceyhun Qurbanov çıxış ediblər.

Şura iclasında qarşıda duran vəzifələrlə bağlı ərazi ilk partiya təşkilatlarının sədrlərinə müvafiq tövsiyə və tapşırıqlar verilib.

**Sərxan İSMAYILOV**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi ilə birlikdə ədliyyə orqanlarında vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqəyə yerli icra və probasiya qurumlarında 8 yer (vəzifə kodu: 960000), Ordubad Rayon Dövlət Notariat Ofisində 1 yer (vəzifə kodu: 960004) və Sədərək Rayon Dövlət Notariat Ofisində 1 yer (vəzifə kodu: 960008) olmaqla, ümumilikdə, 10 vəzifə çıxarılmışdır.

İcra məmuru vəzifəsinin tutulması üçün ali hüquq təhsilli, 30 yaşınadək Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər. Dövlət notariusu vəzifəsinin tutulması üçün isə hüquqşünas ixtisası üzrə 3 ildən az olmayan iş stajına malik ali hüquq təhsilli, 30 yaşınadək Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 29 oktyabr-29 noyabr 2019-cu il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında (*www.dqmk.nmr.az*) "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməli və aşağıdakı sənədlərin skan olunmuş surətlərini "şəxsi kabinet"ə yükləməlidirlər:

*1. Şəxsiyyət vəsiqəsi*
*2. Ali təhsil haqqında sənədlər*
*3. Əmək kitabçası (Dövlət notariusu vəzifəsini tutmaq istəyən şəxslər üçün)*
*4. Hərbi bilet*
*5. 3x4 santimetr ölçüdə fotoşəkil (ağ fonda).*

Xarici ali təhsil müəssisələrinin məzunları təhsil sənədlərinin Azərbaycan Respublikasının ərazisində tanınması və ekvivalentliyinə dair şəhadətnamənin əslini və notarial qaydada təsdiq olunmuş surətini Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim etməlidirlər.

Namizədlər elektron ərizəni təsdiq etmək üçün 70 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilməlidir.

"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ikili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum edilmiş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, tibbi rəyə əsasən fiziki və ya əqli qüsurlarına görə işləməyə qadir olmayan, qanunla müəyyən edilmiş həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar, məhkəmə, prokurorluq, ədliyyə, digər hüquq-mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər işə qəbul edilmirlər.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya gəlməklə müraciət edə bilərlər.

***Maraqlananlar Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya dqmk@nakhchivan.az elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.***

*İdman*

## Ağır atletimizdən Avropa rekordları

***Rumıniyanın paytaxtı Buxarest şəhərində keçirilən yaşı 20 və 23-ə qədər olan gənclər arasında ağır atletika üzrə Avropa birinciliyinə yekun vurulub.***



2020-ci il Tokio Olimpiya Oyunlarına lisenziya xarakterli olan yarışda 41 ölkədən 488 atlet (206 qadın və 282 kişi) birincilik uğrunda körpücük üzərinə çıxıblar.

Qitə birinciliyində Azərbaycan yığma komandasının üzvləri də mübarizə aparıb. Yığmamızın heyətində Rumıniyaya Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən Şərur rayon ağır atletika bölməsinin yetirməsi Tərmenxan Babayev də yollanıb. O, yaşı 20-yə qədər olan atletlərin yarışında 96 kiloqram çəki dərəcəsində qüvvəsini sınayıb.

Atletimiz birdən qaldırma hərəkətində 150, təkanla qaldırma hərəkətində isə 191 kiloqram çəki dərəcəsinin öhdəsindən gələrək müvafiq olaraq 8 və 4-cü yerləri tutub. Ümumilikdə, 341 kiloqram çəki dərəcəsi ilə Tərmenxan Babayev Avropa birinciliyini 7-ci pillədə başa vurub.

Gənclər arasında qitə birinciliyində iştirak etməsinə baxmayaraq, Tərmenxan Babayev iki nəticə ilə yeniyetmələr arasında Avropa rekordunu "qırıb". Belə ki, atletimiz təkanla qaldırma hərəkətində 191 kiloqramla Avropa rekordunu (187 kiloqram) 4, toplamda 341 kiloqramla Avropa rekordunu (339 kiloqram) 2 kiloqram yeniləyib.

## Muxtar respublika birinciliyi başa çatıb



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Kikboksinq Federasiyasının birgə təşkilatçılığı ilə kikboksinq üzrə uşaqlar arasında muxtar respublika birinciliyi keçirilib.*

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən birinciliyin məqsədi kikboksinq idman növünün muxtar respublikada inkişafı, yeniyetmə və gənclər arasında bu idman növünün təbliği olub.

Birincilikdə 22 çəki dərəcəsində 110-a yaxın idmançı 7-8, 9-11 və 12-13 yaş qruplarında fərdi mübarizə aparıblar.

Komanda hesabında birinciliyin qalibi "Turan" Fight Klubu olub. Naxçıvan şəhər komandası ikinci, Babək rayon komandası isə üçüncü yerlə kifayətlənib.

Sonda qalib idmançılar və komandalar diplom və medalla mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 740